

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qiblɘgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 149 (24.036)

10 avqust 2022-ci il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Təyyib Ərdoğanın dəvəti ilə Türkiyəyə işgüzar səfərə gəlib. Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşüblər. Dövlətimizin başçısı V İslam Həmrəyliyi Oyunlarında Azərbaycanın ləyaqətlə təmsil ediləcəyinə əminliyini bildirib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva avqustun 9-da Türkiyənin Konya şəhərində Mövlanə muzeyini ziyarət ediblər.

Prezident İlham Əliyev avqustun 9-da Konyada Şimali Kipr Türk Respublikasının Prezidenti Ərsin Tatarı qəbul edib. Görüşdə Türk dünyasında xalqlar arasında əlaqələrin möhkəmlənməsi işinə xidmət edən V İslam Həmrəyliyi Oyunlarının Türkiyədə keçirilməsinin önəmi vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Konyada Fələstin Dövlətinin Baş naziri Mohammed Ştayyehi qəbul edib.



Dövlət proqramı icra olunur

## Arıçılığın inkişafı istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir

***Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatının davamlı inkişafı məqsədilə həyata keçirilən tədbirlər əhalinin keyfiyyətli ərzaq məhsulları ilə təminatına şərait yaradır. Aqraryönümlü bir çox sahəyə göstərilən dövlət dəstəyi məhsul istehsalının ildən-ilə artırılması, məşğulluğun təmin edilməsi və təsərrüfatçıların fəaliyyətinin stimullaşdırılmasına səbəb olur.***

Naxçıvanda qədim tarixə malik olan arıçılıq da dövlət qayğısı ilə əhatə olunan sahələrdəndir. Arıçılıq müxtəlif insanlar üçün fərqli mənalar kəsb edir. Bəziləri üçün bu, biznes və ya əlavə gəlir, bəziləri üçün isə maraqlı təcrübə, araşdırma üçün bir sahədir. Bir sözlə, arıçılıq iqtisadi cəhətdən gəlirli, qida və müalicəvi əhəmiyyəti baxımından xeyirli, eləcə də ekoloji vəziyyətin yaxşılaşdırılması istiqamətində ən səmərəli təsərrüfat sahəsidir. Muxtar respublikanın mövcud təbii şəraiti və tarixi ənənələri burada arıçılığın inkişafı üçün möhkəm zəmin yaradır. Həyata keçirilən tədbirlər arı ailələrinin sayının artırılması və arıçılıq təsərrüfatlarının genişləndirilməsi ilə nəticələnir. Bu tədbirlərin kompleks xarakter almasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilən “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın mühüm əhəmiyyəti vardır.

Proqramın icrası cari ilin birinci yarım ilində uğurla davam etdirilmişdir. Bu dövrdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən yeni arıçılıq təsərrüfatlarının yaradılması məqsədilə müraciət edən sahibkarlara, ümumilikdə, 152 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir. Bütövlükdə, muxtar respublikada dövlət maliyyə dəstəyi hesabına 1-i ana arı yetişdirmə təsərrüfatı olmaqla, 4 arıçılıq təsərrüfatının yaradılması, 3 arıçılıq təsərrüfatının genişləndirilməsi başa çatdırılmış, 4 arıçılıq təsərrüfatının yaradılması davam etdirilmişdir. Ana arı yetişdirmə təsərrüfatında 130 ana arının yetişdirilməsi və bunlardan 20-nin satışının həyata keçirilməsi yerli arı genofondunun qorunması ilə bağlı tədbirlərin davam etdirilməsindən xəbər verir.

Arıçılığa göstərilən dövlət dəstəyinin digər mühüm təzahürü isə arıçılara saxladıqları hər arı ailəsinə görə subsidiyaların ödənilməsidir. Məhz görülən işlərin nəticəsidir ki, muxtar respublikada qeydə alınan arı ailələrinin sayı ildən-ilə artır. Bu işlərin davamı olaraq birinci yarım ildə 3799 arıçıya saxladıqları arı ailələrinə görə, ümumilikdə, 998 min 500 manat məbləğində subsidiya ödənilmişdir.

Arıçılığın inkişafını şərtləndirən mühüm amillərdən biri də balyığma mənbələrinin mövcudluğudur. Artan arı ailələrinin tələbatına uyğun yeni yem mənbələrinin yaradılması arıçılıq təsərrüfatlarında məhsuldarlığa təsir göstərir. Dövlət proqramında bu istiqamətdə nəzərdə tutulan tapşırıqların icrası məqsədilə ilin birinci yarısında Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 13 hektar ərazidə nektar və çiçək tozu ilə zəngin olan meyvə tinglərindən istifadə edilməklə yeni meyvə bağları salınmışdır. Bundan əlavə, balyığma mənbəyi hesab olunan ağac və kol bitkilərinin yayıldığı əraziləri genişləndirmək üçün dağlıq və orta dağlıq ərazilərdə 80 hektar sahədə meyvə və giləmeyvə toxumları ilə əkin aparılmışdır. Bu istiqamətdə görülən işlər arıçılığın inkişafı üçün mühüm stimullaşdırıcı əhəmiyyətə malikdir.





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Arıçılığın həm daxili bazar, həm də ixrac üçün çox böyük potensialı var. Bizim balımız çox keyfiyyətlidir, xarici bazarlarda yüksək qiymətləndirilir. Biz indi həm ailə biznesi çərçivəsində arıçılığa dəstək oluruq, həm də ki, subsidiyalar verilir... Arıçılığın böyük perspektivləri var, bu, çox gəlirli sahədir”.*** Tarixboyu arıçılığın inkişaf etdirilməsinin əsas məqsədlərindən biri insanları qiymətli qida məhsulu sayılan balla, təbabəti arı zəhəri, arı südü, xalq təsərrüfatını mumla və sair ilə təmin etməkdən ibarət olub. Muxtar respublikada mum vərəqi istehsalının yerli imkanlar hesabına həyata keçirilməsi arıçılıq təsərrüfatlarının fəaliyyətini stimullaşdıran digər mühüm amildir. Birinci yarım ildə Şahbuz şəhərində fəaliyyət göstərən “Naxçıvan Arıçılığı” Məhdud Məsuliyyətli Cəmiyyətində 500 kiloqram mum vərəqi istehsal edilmişdir. Müəssisədə istehsal olunan məhsulun 270 kiloqramı, həmçinin ilin birinci yarısında 1200 kiloqram arı yemi arıçı sahibkarlara satılmışdır.

Arı xəstəliklərinin vaxtında aşkarlanmaması, xəstəliklərə qarşı tədbirlərin görülməməsi arı ailəsinin məhv olmasına gətirib çıxarır. Bundan başqa, xəstəliklər nəticəsində zəifləmiş ailələrdə məhsuldarlıq da aşağı düşür. Ona görə də xəstəliklərə qarşı mübarizə məqsədilə aparılan analizlər yarana biləcək xəstəliklərin əhatə dairəsi genişlənmədən müalicəsinin həyata keçirilməsinə imkan verir. Birinci yarım ildə Dövlət proqramının icrasına uyğun olaraq Amerika və Avropa çürüməsi xəstəliklərinə qarşı arıxanalardan 16 min 491 nümunə götürülərək yoxlanılmış, xəstəlik aşkar olunmamışdır. Eyni zamanda parazitar xəstəliklərdən olan varroatoz, akarapidoz, nozematoz xəstəliklərinə qarşı müayinələr aparılmış və təyinatı üzrə tədbirlər görülmüşdür. Proqramın icrası istiqamətində Kəngərli rayonunda yeni heyvandarlıq – arıçılıq əczaxanasının yaradılması isə arıçıların vaxtında keyfiyyətli dərman preparatları ilə təmin olunması məqsədilə həyata keçirilən tədbirlərin uğurla davam etdirildiyini göstərir.

Arıçılıq təsərrüfatlarını iqtisadi zərərdən qorumağın bir yolu arı xəstəlikləri ilə mübarizədirsə, mümkün riskləri minimuma endirməyin digər mühüm vasitəsi isə arı ailələrinin sığortalanmasıdır. Dövlət proqramında bu məqsədlə nəzərdə tutulan tapşırıqların icrası ilin birinci yarısında da davam etdirilmişdir. Bu dövrdə muxtar respublikada, ümumilikdə, 204 arı ailəsinin sığortalanması aparılan maarifləndirmə işlərinin müsbət nəticəsinin əyani ifadəsidir.

Muxtar respublika arıçılarının beynəlxalq əhəmiyyətli tədbirlərdə iştirakının təmin olunması bu sahədə təcrübə mübadiləsinin həyata keçirilməsinə və müasir inkişaf istiqamətlərinin mənimsənilməsinə imkan yaradır. Bu işlər birinci yarım ildə də davam etdirilmiş, “Naxçıvan Muxtar Respublikası Arıçıları” İctimai Birliyinin sədri 23-24 yanvar tarixlərində İsmayıllı rayonunda keçirilən VII Beynəlxalq Arıçılıq Konfransında, 4-6 mart tarixlərində isə İstanbul şəhərində keçirilən IX arıçılıq məhsulları sərgisində iştirak etmişdir.

Arıçılığın inkişafı bu sahədə fəaliyyət göstərən təsərrüfatçılarla dövlət orqanları arasında məlumat mübadiləsinin mütəmadi xarakter daşımasından da əhəmiyyətli dərəcədə asılıdır. Mövcud tarixi ənənələrin elmi yanaşma ilə vəhdəti arıçılıq təsərrüfatlarında gəlirliliyi təmin edən başlıca şərtlərdəndir. Bu məqsədlə yanvar-iyun aylarında arıçı sahibkarlarla, ümumilikdə, 11 müşavirə və 15 görüş keçirilmiş, 12 adda 120 nüsxə maarifləndirici buklet hazırlanaraq paylanmışdır. Dövlət proqramının icrası istiqamətində həyata keçirilən maarifləndirmə işləri arıçıların öz təsərrüfatlarını mütəxəssis məsləhəti əsasında səmərəli idarə etməsi üçün geniş imkanlar açmışdır. Proqramın giriş hissəsində qeyd olunduğu kimi: *“Muxtar respublikada arıçılığın inkişafı, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün davamlı tədbirlər görülür. Belə ki, arı ailələrinin və arıçılıq məhsullarının çeşidinin artırılması, arıçılıqda xəstəliklərə qarşı mübarizə tədbirlərinin gücləndirilməsi keyfiyyətli məhsul istehsalına və bazarın yerli istehsal hesabına təmin olunmasına şərait yaratmışdır”.*

Görülən işlər və həyata keçirilən tədbirlər bu sahədə uğurların davamlılığını təmin edir.

**“Şərq qapısı”**

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir

Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər iyul ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 51 əcnəbi aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay Dövlət Miqrasiya Xidmətinə, ümumilikdə, 538 müraciət daxil olmuşdur. Daxil olan müraciətlərdən 126-sı əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olmuşdur. Müraciətlərin hər biri ayrı-ayrılıqda Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə əsasən araşdırılmış, müvafiq qərarlar qəbul edilmişdir.

Ötən dövrdə olduğu yer üzrə qeydiyyatla bağlı 412 müraciət qeydə alınaraq icrası təmin olunmuş, həmin müraciətlərdən 66-sı elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilmişdir.

Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılmışdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

## Operativ vergi nəzarəti tədbirləri davam etdirilir

Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidməti və onun yerli qurumları tərəfindən iyul ayında muxtar respublika ərazisində fəaliyyət göstərən ticarət, iaşə, xidmət və digər sahələrdə yoxlama və monitorinqlər davam etdirilib, 10 vergiödəyicisində qanunvericiliyin pozulması faktları aşkar olunub. Operativ vergi nəzarəti tədbirləri zamanı həmin vergiödəyicilərində “Fərqlənmə nişanı” olmadan avtomobil nəqliyyatı ilə sərnişindaşıma ilə məşğulolma faktları aşkarlanıb və həmin şəxslər barəsində qanunamüvafiq tədbirlər görülüb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin mətbuat xidməti***

*Son illər ölkəmizdə həyata keçirilən təhsil siyasəti innovasiyaları, Azərbaycanda dünya səviyyəli ali təhsil xidmətləri göstərə bilən universitetlərin formalaşmasını və ölkəmizin ən cəlbedici ali təhsil məkanlarından birinə çevrilməsinə hədəfləyib. İnformasiya texnologiyalarının inkişafı və qloballaşma ilə birlikdə, ali təhsildə beynəlmiləlləşmə əhəmiyyətli bir inkişaf strategiyası yaradıb. Beynəlxalq rəqabətə və əməkdaşlıq şəbəkələrinə aktiv şəkildə qoşulmanı tələb edən bu strategiya, elmi və texnoloji proseslərdə iştiraketmə, təhsil-araşdırma təcrübəsi və resurslarını birləşdirmə, maddi resurslara çıxış, institusional potensialı təkmilləşdirmə və keyfiyyətli insan resursu cəlbetmə baxımından mühüm əhəmiyyət kəsb edir. Bu strategiya "Naxçıvan" Universitetində də uğurla icra olunur. Universitetlə yaxından tanışlıq üçün ali təhsil müəssisəsinin tədris hissə müdiri Anar Abuzərli ilə həmsöhbət olduq.*



*Təhsil millətin gələcəyidir*

## "Naxçıvan" Universiteti səmərəli və keyfiyyətli təhsil təminatı ilə tələbələrin hədəflərinin reallaşmasına öz töhfələrini verməkdədir

Öyrəndik ki, 1999-cu ildə təsis edilən "Naxçıvan" Universiteti hazırda 2000-dən yuxarı tələbənin, eyni zamanda tədrislə əhatə oluna biləcəyi universitet şəhərciyidir. Tədris ocağında tədrisin təşkilində İnformasiya-kommunikasiya texnologiyalarından istifadəyə xüsusi fikir verilir. Bütün binalarda qabaqcıl dünya universitetlərindən geri qalmayan elektron nəzarət və idarəetmə sistemləri quraşdırılıb, elektron təhsil üçün tam infrastruktur yaradılıb. Bütün mühazirə otaqları ən müasir modifikasiyalı elektron lövhələrlə təchiz edilib. Anar Abuzərli deyir ki, hazırda universitetdə istifadə olunan 441 kompüterin hər biri internetə qoşulub, onlardan 343-ü tələbələrin ixtiyarına verilib. Bundan başqa, mühazirə otaqlarında quraşdırılmış 18 elektron lövhə tədrisin yüksək səviyyədə təşkilinə xidmət edir. 2015-ci ildən başlayaraq universitetdə 100 meqabit sürətində internetdən istifadə olunur.

Dünyanın qabaqcıl ali təhsil müəssisələrində olduğu kimi, 2021-2022-ci tədris ilində "Naxçıvan" Universitetində də STEAM mərkəzi yaradılıb. Bu mərkəzin yaradılması Kompüter mühəndisliyi və İnformasiya texnologiyaları ixtisaslarında təhsil alan tələbələrin nəzəri biliklərinin müasir təcrübi metodlarla daha da möhkəmləndirilməsinə, həmçinin müasir çağırışlara cavab verən yeni innovativ üsulların öyrənilməsinə xidmət edir. Görülən işlərin nəticəsidir ki, Naxçıvan şəhərində keçirilən "STEAM təhsil festivalı"nda "Naxçıvan" Universitetinin STEAM komandasının təqdim etdiyi layihələr festivalda "Yaşıl texnologiyalar" nominasiyası üzrə II, "Sosial texnologiyalar" nominasiyası üzrə isə III yerə layiq görülüb. Bundan başqa, universitet Bakı şəhərində keçirilən "Teknofest Azərbaycan" tədbirində də iki layihə ilə iştirak edib və uğurlu təqdimatla yadda qalıb.



Anar müəllimin sözlərinə görə, "Naxçıvan" Universitetində tədrisin təşkili ilə 92 nəfər professor-müəllim heyəti məşğul olur ki, onlardan 2-si professor, 2-si elmlər doktoru, 21-i dosent, 69 nəfəri isə müəllimdir. Əməkdaşlardan 1-i Azərbaycan Respublikasının, 1-i isə Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimidir. Burada təhsilin bakalavriat səviyyəsində 22 ixtisas üzrə 1361 tələbə, magistratura səviyyəsində 8 ixtisas üzrə 26 tələbə, doktorantura səviyyəsində 14 ixtisas üzrə 31 tələbə təhsil alır. 2022-2023-cü tədris ilindən başlayaraq bakalavriat səviyyəsində daha üç yeni ixtisasın – Filologiya – Azərbaycan dili və ədəbiyyat, Tarix, Ekologiya mühəndisliyi kimi ixtisasların açılması nəzərdə tutulur.





Öyrəndik ki, təkcə bu il "Naxçıvan" Universiteti bir beynəlxalq konfransa ev sahibliyi edib, əməkdaşlar 30 beynəlxalq, 2 respublika konfransında iştirakçı olublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2022-ci il 17 yanvar tarixli Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasında 2022-ci ilin "Sənaye ili" elan edilməsi ilə bağlı universitetdə 29 aprel 2022-ci il tarixdə elmin istehsalatda tətbiqinə, elmi araşdırma və tədqiqatlara həsr olunmuş "Naxçıvan Muxtar Respublikasında sənayenin diversifikasiyası beynəlxalq iqtisadi inteqrasiya amili kimi" mövzusunda beynəlxalq konfrans keçirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamı ilə muxtar respublikanın təhsil tarixində yeni bir dövrün başlanğıcı qoyulduğunu qeyd edən tədris hissə müdiri deyir ki, bu Sərəncamla universitetdə 15-ə yaxın ixtisas 10-a yaxın təşkilata hamiliyə verilib. Bu mühüm qərar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşdırılması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır. "Naxçıvan" Universiteti də elmi yeniliklər və innovasiyaların dəstəklənməsi təşəbbüsünə qoşularaq bu sahədə addımlarını atmaqdadır.

Anar Abuzərli deyir ki, muxtar respublikamızda ali təhsilin beynəlmiləlləşməsi və ali təhsil sahəsində beynəlxalq əlaqələrin inkişafı diqqət mərkəzində saxlanılır. Bu diqqətin nəticəsidir ki, "Naxçıvan" Universiteti dünyanın 52 universiteti ilə tədris və elmi sahədə əlaqə saxlayır, Beynəlxalq əlaqələr şöbəsi universitetin beynəlxalq mühitə inteqrasiyasına, müxtəlif universitetlərlə əlaqələrin yaradılmasına, beynəlxalq təlim və proqramlarda iştirakına şərait yaradır. Erasmus+ proqramı çərçivəsində layihələrin icrası uğurla davam etdirilməkdədir. Belə ki, cari tədris ilində EQAC layihəsinin icrası uğurla tamamlanıb və layihənin davamlılığının təminatı üçün universitetdə Keyfiyyət Təminatı Mərkəzi yaradılıb. Cari ildən



"Naxçıvan" Universiteti ECAR – Azərbaycanda Rektorlar Konfransının yaradılması adlanan növbəti irimiqyaslı beynəlxalq layihənin tərəfdaşı olub. Layihə bu ildən başlayaraq aktiv şəkildə icra edilməkdədir. Bu layihə çərçivəsində Bakı şəhərində müxtəlif təlimlər olub. Onu da qeyd edək ki, bu il Erasmus+ proqramı çərçivəsində Rumıniyanın Piteşti Universiteti ilə olan müqavilə yenilənib və növbəti ildən bu istiqamətdə işlərin icrası davam etdiriləcək. Eləcə də Erasmus+ KA 107 çərçivəsində Litvanın Mikolos Romerius Universiteti ilə tələbə və müəllim heyətinin mobilliyini təmin etmək məqsədilə müqavilə imzalanıb, növbəti tədris ilindən bu ali təhsil müəssisəsi ilə mübadilə davam edəcəkdir. İspaniyanın Valladolid Universiteti ilə ikili müqavilə imzalanıb, Xarici dillər fakültəsinin iki tələbəsi – Allahverdi Muradov və İlqar Novruzov bir semestrlik mübadilə proqramının qalibi kimi Valladolid Universitetində təhsil almaq hüququ əldə ediblər. Həmçinin universitetin doktorantlarından olan Dilarə Əsgərova və Selcan Abdullayeva İspaniyanın Valladolid Universitetində sentyabr ayından etibarən bir semestr tədqiqat aparmaq üçün seçiliblər. "Naxçıvan" Universitetində beynəlxalq əlaqələri genişləndirməklə yanaşı, universitetə əcnəbi tələbələrin cəlbi də diqqət mərkəzində saxlanılır. 2021-2022-ci tədris ilində universitetdə 86 əcnəbi tələbə təhsilini davam etdirib. Onlardan 66-sı Türkiyə, 7-si Nigeriya, 13-ü İran İslam Respublikası vətəndaşıdır.

Anar müəllim deyir ki, bu il may ayının 13-də "Naxçıvan" Universitetinin Xarici dillər fakültəsində Alman Dili Tədrisi Mərkəzinin açılışı olub. Bu məqsədlə Almanya Federativ Respublikasında fəaliyyət göstərən Würzburg Universitetinin professoru Sieglinde Hartmann, Maurer Nəşriyyat Evinin direktoru Hans Jürgen Maurer, Alman Dili Tədrisi Mərkəzinin əməkdaşları, Bakı Slavyan Universitetinin professorları Sevinc Rzayeva, professor Leyla Bəylərova və Azərbaycan Dillər Universitetinin professoru Əfqan Abdullayev universitetdə keçirilən açılış mərasimində iştirak edərək təlim-məşğələlər təşkil ediblər. Həmçinin bu il may ayının 24-də universitetdə "Türk Dünyası Digital Vətəndaşlığı" layihəsinin məlumatlandırma günü təşkil olunub. Layihənin məqsədi Türk dünyası haqqında koqnitiv maarifləndirmə aparmaq, eyni soydan gələn gənclərin ortaq mədəniyyətə aid əsas dəyərlərin qazanmasını təmin etmək, bacarıqlarının inkişafına nail olmaqdır. Layihə çərçivəsində dünyanın 9 ölkəsindən 67 universitet ilə əməkdaşlıq protokolları imzalanıb.

Anar müəllim qeyd edir ki, ölkəmizdə təhsilin inkişafına göstərilən qayğının nəticəsi olaraq hazırda 196 tələbə dövlət hesabına təqaüd alır ki, bunlardan 54-ü dövlət sifarişi, 100-ü isə əlavə təqaüd əsasında, 8-i valideyn himayəsindən məhrum, 24-ü müharibə veteranı olan, 10 nəfər tələbəmiz isə sağlamlıq imkanları məhdud tələbələrdir.

*Anar müəllimlə söhbət zamanı bir daha əmin olduq ki, qısa zaman kəsiyində mühüm və əhatəli perspektivlərə istiqamətlənərək böyük inkişaf yolu keçən "Naxçıvan" Universitetinin qazandığı müvəffəqiyyətlər davamlı olacaq, aparılan məqsədyönlü təhsil siyasəti nəticəsində universitet daha böyük nailiyyətlər əldə edərək ardıcıl uğurlara imza atacaq.*

**Gülcamal TAHİROVA**

## *"Naxçıvan mətbuatı tarixdə və günümüzdə"* adlı tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və "Şərq qapısı" qəzeti əməkdaşlarının iştirakı ilə Naxçıvanşünaslıq Mərkəzində keçirilən tədbiri giriş sözü ilə mərkəzin elmi katibi Nihad Tarverdiyev açıb.

Bildirib ki, ümummilli liderimiz Heydər Əliyevin Azərbaycan milli mətbuatının inkişafında, müasir, demokratik dəyərlər üzərində qurulmasında çox böyük tarixi xidmətləri vardır. O öz dərin zəkası, fenomenal bilgisi və uzaqgörən siyasəti ilə həm də Azərbaycan mətbuatının məzmununu zənginləşdirmiş, onun milli maraqlar üzərində qurulması və milli dövlətçiliyimizin inkişafına istiqamətlənməsi üçün əvəzedilməz işlər görmüşdür. Böyük fəxr hissi ilə qeyd edə bilərik ki, ulu öndər milli mətbuatımızın qurucusudur. Bu gün artıq muxtar respublikamızın bütün mətbu orqanları son illərdə Naxçıvanın dünyada təbliği və tanıdılması, diyarımızla bağlı düzgün ictimai rəyin formalaşdırılması istiqamətində əhəmiyyətli işlər görür.



"Şərq qapısı" qəzetinin məsul katibi, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Muxtar Məmmədov "Şərq qapısı" qəzeti muxtar respublika mətbuatının aparıcı simasıdır" mövzusunda çıxış edərək bildirib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 1 iyun tarixli Sərəncamına əsasən ötən il "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması birəsrlik şərəfli yol keçmiş bu qəzetin tarixi ənənələrinə verilmiş qiymətin və bundan sonrakı fəaliyyətinə göstərilən qayğının əməli ifadəsidir.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "Şərq qapısı" qəzetinin ideya və peşəkarlıq baxımından nüfuzlu mətbuat orqanı kimi fəaliyyətini davam etdirməsi üçün geniş tədbirlər həyata keçirir, jurnalistikanın inkişafına ardıcıl olaraq böyük diqqət və qayğı göstərir. Ali Məclis Sədrinin 2000-ci il 29 mart tarixli "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" Sərəncamı, redaksiyanın 2010-cu ildə yeni binaya köçürülməsi, 80, 85, 90, 100 illik yubileylərinin keçirilməsi, milli mətbuatın 135 illiyi ərəfəsində qəzetin əməkdaşları ilə görüş, mətbuat işçilərinin əməkhaqlarının artırılması və digər tədbirlər bunun ifadəsidir. Bu gün "Şərq qapısı" qəzeti ən müasir poliqrafiya avadanlıqları ilə təchiz olunmuşdur. Ali Məclis Sədrinin qayğısı sayəsində "Şərq qapısı" qəzeti ölkə üzrə özünəməxsus yüksək maddi-texniki bazaya malik mətbəəsi olan azsaylı mətbuat orqanlarından biridir.

"Rayon qəzetləri muxtar respublikamızın mətbu güzgüsüdür" mövzusunda çıxış edən qəzetin müxbiri Məcid Rəşadətoğlu vurğulayıb ki, Naxçıvan şəhərində muxtar respublikanın əsas mətbuat orqanının nəşrindən sonra rayonlarda da yerli mətbuat orqanları yaranmağa başladı. Müxtəlif vaxtlarda fəaliyyətə başlamış muxtar respublikanın rayon qəzetləri Naxçıvan mətbuat məktəbini yeni ənənələrlə zənginləşdirdi.

Qeyd olunub ki, bu gün muxtar respublikada 8 rayon (şəhər) qəzeti – "Şərurun səsi", "El həyatı", "Arazın səsi", "Oğuz səsi", "Şərqin səhəri", "Nuh yurdu", "Oğuz yurdu" və "Yeni həyat" qəzetləri dərc olunur. Naxçıvanın rayon mətbuatı fikir plüralizmini, dövlətçilik amalını özünün başlıca meyarları hesab edərək ictimai-siyasi prosesləri operativ əks etdirməyə çalışan, milli maraqları üstün tutan mətbuat orqanları kimi fəaliyyət göstərir.

Sonra mərkəzdə yaradılan sərgiyə baxış olub.

**Məcid RƏŞADƏTOĞLU**

*Əfsanəyə dönən ömürlər*

# Vətənin Vüqarı

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev iyunun 26-da – Silahlı Qüvvələr Günündə Kəlbəcər rayonunda komando hərbi hissəsinin açılışında çıxış edərək demişdir: **“Bizim şanlı müharibəmiz indi müxtəlif ölkələrin ali məktəblərinin hərbi dərsliklərindədir və bunu bir çox hərbi ekspertlər qeyd edirlər. Çox çətin relyefi olan ərazini, Şuşa kimi alınmaz qalanı cəmi 44 gün ərzində azad etmək ancaq Azərbaycan əsgərinin ruhu, gücü hesabına mümkün olmuşdur. Biz bütün dünyaya göstərdik ki, həm ruhən, həm fiziki cəhətdən, həm peşəkarlıq, həm döyüş qabiliyyəti, həm də Vətənə olan sevgi və məhəbbət nöqteyi-nəzərindən böyük xalqıq”.** Bəli, bu o ruh idi ki, istər həmin dövrdə xidmətdə olanlar, istər ehtiyatdan xidmətə çağırılanlar, istərsə də könüllü olaraq döyüşlərə gəlməyə can atan Vətən övladlarını Vətən müharibəsində iştirak etməyə sövq etdi. Belə igid, cəsur oğullardan biri də Vüqar Əhməd oğlu Ağayevdir.*



O, 1973-cü il mart ayının 4-də Qubadlının Xanlıq kəndində dünyaya göz açmışdı. Qubadlının havasını udmuş, suyunu içmiş, uşaqlığının ən gözəl xatirələrini Xanlıq kəndində yaşamışdı. Atası hərbçi olduğundan yaşayış yerini dəyişsələr də, Qubadlı onun üçün daha əziz və doğma idi. Haradan biləydi ki, gün gələcək illərlə Qubadlının həsrətini çəkəcəkdi...

Birinci Qarabağ döyüşləri başlayanda Vüqar Ağayev müddətli həqiqi hərbi xidmətdə idi. Həmin illərdə ölkədə daxili çəkişmələr baş alıb gedir, xaos, böhran və hakimiyyət uğrunda mübarizə çox ciddi fəsadlara gətirib çıxarırdı. Ordunu idarə etmək üçün vahid komandanlıq yox idi. Ermənistan isə bundan istifadə edərək torpaqlarımızı zəbt etməyə davam edir, şəhər və kəndlərimiz işğala məruz qalır, mülki əhalimiz öz dədə-baba torpaqlarından didərgin salınırdı. Əsgər Vüqar Ağayev Azərbaycanın Milli Qəhrəmanı Əliyar Əliyevin komandiri olduğu taborda döyüşürdü. Döyüşlər məlum səbəblərdən məğlubiyyətlə nəticələnsə də, yeni formalaşmaqda olan milli orduda peşəkar zabit kadrlarının yetişməsi üçün zəmin yaradır. Orduya bağlılığı və vətənpərvərliyi nəzərə alınaraq ali hərbi təhsil almağa göndərilənlərdən biri də Vüqar olur. Ali hərbi təhsilini müvəffəqiyyətlə başa vuran Vüqar Ağayev zabit kimi xidmətinə davam etmək üçün Naxçıvanda yerləşən hərbi hissələrdən birinə göndərilir.

### *Qubadlıdan Naxçıvana*

Uşaqlıq illəri şən keçsə də, gəncliyi ölkənin ağır illərinə təsadüf etmiş, düşmənlə üz-üzə dayanaraq torpaqlarımızın azadlığı uğrunda döyüşmüşdü. Torpaq həsrəti, Qubadlı nisgili və məğlubiyyətlə barışmazlıq hissi onu ömürlük hərb peşəsinə bağlamışdı. 1996-cı ildən Naxçıvanda leytenant kimi xidmətə başlayan Vüqar Ağayev 20 il qüsursuz xidmət edərək mayor rütbəsinədək yüksəlmiş, xidməti dövründə fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90, 95, 100 illik yubiley medallarına, “Hərbi xidmətdə fərqlənməyə” görə 3-cü dərəcəli, “Qüsursuz xidmətə görə” 1-ci, 2-ci, 3-cü dərəcəli medallara layiq görülmüşdü. Gənc zabitlərin yetişməsinə, eləcə də əsgərlər arasında hərbi-vətənpərvərlik ruhunun yüksəldilməsinə töhfələr verən zabitimizin torpaq həsrəti, Qubadlı nisgili heç vaxt sönməmişdi. Naxçıvanın müxtəlif bölgələrində xidmət edən Vüqar Ağayev ömür-gün yoldaşını da buradan seçmişdi. 2016-cı ildə təqaüdə çıxdıqdan sonra hərbçimiz övladlarının – Yeganə və Pərvinin təhsili ilə əlaqədar Naxçıvanda yaşamağa davam edirdi. Qubadlı qədər Naxçıvan da onun üçün əziz idi. Burada xoşbəxtliyini tapmış, Naxçıvanın hər daşını, qayasını sevmiş, müdafiəsində iştirak etmişdi.

### *Naxçıvandan Qubadlıya*

2020-ci il... Sentyabrın 27-də başlayan müharibə hər kəs kimi Vüqar Ağayevdə də böyük bir ümid yaradır. Xidməti dövründə milli ordunun inkişafına şahidlik edən peşəkar zabit yaxşı bilirdi ki, bu artıq 90-cı illərin ordusu deyil. Böyük çətinliklə qurulmuş milli ordu istənilən gücün qabağında dayanmağa hazır və qadirdir. Bütün bu düşüncələr, səbirsizliklə gözlədiyi “İrəli!” əmri onu döyüşlərə atılmağa daha da ruhlandırmışdı. Artıq heç bir qüvvə onu saxlaya bilməzdi. Nə ailə səadəti, nə təqaüdə çıxmağın sığortası. Çünki Qubadlı var idi... Qubadlı – üstündə elə bir hissdir ki, onu təsvir etməyə qələmin gücü yetməz. Heç ölümün də... O hissin adı Vətəndir:

*Çağırır Vətən,*
*Çağırır anam*
*Mənfur düşməndən*
*Qisas almağa.*

Qisas vaxtı çatmışdı. “Qubadlını ovcumun içi kimi bilirəm, mən orada olmalıyam”, – deyən Vüqar Ağayev ailəsi ilə vidalaşıb yola düşür. 2020-ci ilin oktyabrında könüllü olaraq Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qubadlı rayon bölməsinə müraciət edərək Vətən müharibəsinə qatılır.



Qubadlı uğrunda şiddətli döyüşlər gedirdi. Düşmən yüksəkliklərdə hərbi birləşmələri yerləşdirmiş, Xanlıq qəsəbəsində güclü istehkam qurmuşdu. Qubadlını azad etmək üçün, ilk növbədə, yüksəkliklər düşməndən təmizlənməli idi. Cəsur döyüşçülərimizin igidliyi sayəsində şəhərə hakim olan yüksəkliklər nəzarətə götürüldü, ətrafda yerləşən Xanlıq, Padar, Sarıyataq, Mahmudlu yaşayış məntəqələri düşməndən azad olundu.

Qubadlı istiqamətində gedən döyüşlərə qatılan Vüqar deyilənə görə, doğma kəndi Xanlıq azad ediləndə ata-baba ocağına – evinə gedir. Gözündəki, könlündəki illərin həsrətini bitirmək üçün...

Noyabrın 1-i Qubadlı uğrunda gedən şiddətli döyüşlərdə Vüqar Ağayev qəhrəmanlıqla şəhadətə qovuşur. Qubadlının işğaldan azad edilməsini dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tarixi hadisə adlandırıb, qələbəmizi yaxınlaşdıran amillərdən biri kimi dəyərləndirib. Bu qələbənin qazanılmasında mayor Vüqar Ağayevin də böyük əməyi var. Doğma el-obasının azadlığa qovuşduğunu görməyi və bu mücadilədə əməyinin olmasını qəhrəmana birbaşa Vətən, torpaq sevgisi, peşəsinə sadiqlik – zabit şərəfi və intiqam hissi nəsib edir. Uğruna həyatından keçdiyi ana torpağına qovuşur və ən ali məqama – şəhadətə yüksəlir. 30 illik həsrətin Zəfər sevincini xalqına yaşadan qəhrəmanlardan biri olmaq səadəti ilə bitirir. Birinci Qarabağ döyüşlərində əsgər kimi yarımçıq qoyduğu işi İkinci Qarabağ döyüşündə zabit kimi şərəflə sonlandırır.

### *“Torpağına baş əyərəm, ey Vətən”*

Azərbaycanın ərazi bütövlüyü uğrunda xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad edilməsi zamanı qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlığa görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zaman igidlik və mərdlik nümayiş etdirilməsinə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına əsasən Vüqar Ağayev “Vətən Müharibəsi Qəhrəmanı” adına layiq görülüb, “Vətən uğrunda” və “Qubadlının azad olunmasına görə” medalları ilə təltif edilib.

Şəhidimiz II Fəxri xiyabanda dəfn olunub. Bakı şəhərində yerləşən Qubadlı rayonunun Xanlıq kənd ümumi orta məktəbinə Vüqar Ağayevin adı verilib, büstü qoyulub.

Ölümü ilə ölümsüzləşən, həyatı qəhrəmanlıq dastanına çevrilən, gənc nəslə örnək olan şəhid mayor Vüqar Ağayevin ailəsi dövlətimiz tərəfindən qayğı ilə əhatə olunub. Ötən il iyunun 26-da – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günündə İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələrinə yeni mənzillər təqdim edilib. Babək şəhərindəki yeni yaşayış binasındakı mənzillərdən biri Vətən müharibəsi Qəhrəmanı Vüqar Ağayevin ailəsinə təqdim edilib. Şəhidin həyat yoldaşı Səbahət Ağayeva onun barəsində qürurla danışır, muxtar respublikamızda şəhid ailələrinə göstərilən dövlət qayğısından ürəkdolusu, minnətdarlıqla söz açır.

Evin divarlarından qəhrəmanın şəkilləri asılıb. Gözüm Səbahət xanımla Vüqarın bir xoşbəxt tablosuna sataşır. Həmin an düşünürəm: “Bu xoşbəxtlik tablosuna üstün gələməyə yalnız və yalnız Vətən sevgisi qadir ola bilərdi. Ey Vətən, sən necə də böyük və müqəddəssən! Düşmən tapdağında qalmayasan deyə neçə-neçə igidlər canını fəda etdi”.

Səbahət xanımla sağollaşıb ayrılıram. O xoşbəxtlik tablosu gözümün önündən getmir. Və bu an sanki xəyallarımın dərinliklərindən qulağıma görkəmli sənətkarımız Rəşid Behbudovun ifası ilə məşhurlaşan, gözəl bəstəkarımız Elza İbrahimovanın ürəkləri fəth edən mahnısının sədaları gəlir:

*Nəğmə dolu bir ürəyəm,*
*Torpağına baş əyərəm, ey Vətən.*
*Meşələrin çətirlidir,*
*gül-çiçəyin ətirlidir!*
*Ey Vətən, ey Vətən!*
*Dağlarına düşən şehdən,*
*Çöllərinə əsən mehdən*
*Doya bilmirəm, doya bilmirəm*
*Ey Vətən...*
*Bir anamdan, bir də səndən*
*Bu dünyada, bu dünyada*
*Doya bilmirəm, doya bilmirəm*
*Ey Vətən...*

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan televiziyasının baş redaktoru***

*İyul ayı ərzində bədən tərbiyəsi və idmanın inkişafı, könüllülərlə işin təşkili, gənc nəslin sağlam və vətənpərvər ruhda formalaşdırılması, onların cəmiyyətdəki aktivliyini artırmaq məqsədilə bir sıra tədbirlər həyata keçirilib, istedadlı gənclərin əməyi yüksək qiymətləndirilib.*

## Gənclər və idman siyasəti yaddaqalan uğurlara imza atmaqla bəhrəsini verməkdədir



Bəhs olunan dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun müvafiq Sərəncamına əsasən Röya Abdullayevanın (kikboksinq idmanı üzrə) və Kamal Qafarovun (STEAM təhsili üzrə) adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının “Qızıl kitabı”na yazılaraq onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülüblər. Nazirliyin əməkdaşı Valeh Mahmudov “Türkiyə-Azərbaycan mütəxəssis mübadiləsi proqramı” çərçivəsində Azərbaycan nümayəndə heyətinin tərkibində qardaş ölkənin İstanbul, Konya və Ankara şəhərlərində olub, gənclər sahəsi ilə bağlı yeni bilik və təcrübələrə yiyələnib. Ənənəvi “Yay məktəbləri” davam etdirilməklə gənclər üçün Ağbulaq İstirahət Mərkəzində ikimərhələli düşərgə, Kəngərli rayonunun gəncləri üçün “Gələcək üçün maliyyə” mövzusunda təlim və sağlamlıq imkanları məhdud uşaqlar arasında “Vətəni tanı” intellektual oyunu təşkil olunub. Naxçıvan şəhərində yaşayan bir qrup gənc Heydər Əliyev Muzeyinə, Kəngərli, Babək və Sədərək gəncləri isə “Naxçıvanı tanıyaq!” devizi ilə Şahbuz rayonunda yerləşən muzey və turizm obyektlərinə ekskursiya ediblər. Şəhər və rayonlarda şəhid ailələrinin ziyarət olunması ənənəsi davam etdirilib, may ayında start götürmüş “Əsgərin kitab rəfi” aksiyası çərçivəsində elmi, bədii, publisistik və digər janrlarda olan 500-ə yaxın kitab Əlahiddə Ümumqoşun Orduya təhvil verilib.

Hesabat ayı muxtar respublikanın idman həyatı üçün qazanılan fərdi nəticələr, ölkədaxili əməkdaşlıq əlaqələrinin inkişafı və kadr ehtiyatının zənginləşdirilməsi istiqamətində görülən işlərlə yadda qalıb. Bəhs olunan dövrdə fiziki tərbiyə müəllimlərinin qatıldığı beynəlxalq səviyyəli “Level 1” məşqçilik kursları yekunlaşıb, iştirakçılar sertifikatla təmin olunublar. Naxçıvan Güləş Federasiyasının cüdo bölməsində Əməkdar məşqçi Azər Bağırov, cüdo üzrə dünya və Avropa çempionu Elçin Mayılov və usta cüdoçuların dünya və Avropa çempionu Azər Fətullayevin iştirakı ilə seminarlar keçirilib, Azərbaycan Cüdo Federasiyasının prezidenti Rəşad Nəbiyev İlham Əliyev adına Olimpiya İdman Kompleksində cüdoçularımızla görüşüb və onların məşq prosesini izləyib. Boks üzrə milli komandamızın böyük məşqçisi Nəriman Abdullayevin rəhbərliyi ilə ölkəmizin titullu dəri əlcək sahibləri Ruslan Rüstəmov, Məhəmməd Abdullayev, Türkeş Mustafayev, Tayfur Əliyevin iştirakı ilə boksçulara, Azərbaycan Futbol Federasiyaları Assosiasiyası Hakimlər Komitəsinin nümayəndəsi, FİFA referisi Anar Salmanov və milli dərəcəli hakim Ceyhun Haşımov tərəfindən futbol hakimlərinə, Azərbaycan Gimnastika Federasiyasının məşqçisi Züleyxa İsmayılova və xoreoqraf Sənan Mahmudlu tərəfindən “Xatun” Bədii Gimnastika İdman Klubu və bölmələrdə fəaliyyət göstərən idmançılara, cüdo üzrə idman ustası Vüqar Əliyev tərəfindən isə Şərur Rayon Uşaq-Gənclər İdman Məktəbində cüdo bölməsinin idmançılarına seminar keçirilib. Şahmat üzrə beynəlxalq usta norma turniri, FIDE hakimi Hüseyn Tağıyevin xatirəsinə həsr olunmuş 12 yaşadək uşaqlar arasında şahmat, Vətən müharibəsi şəhidlərinin xatirəsinə həsr olunmuş 2011-ci il təvəllüdlülər arasında futzal üzrə muxtar respublika çempionatları, Şərur rayonunda tir atıcılığı və ağırlıqqaldırma üzrə muxtar respublika açıq turnirləri, eləcə də Vətən müharibəsi şəhidi Toğrul Məmmədovun xatirəsinə həsr olunmuş cüdo üzrə Naxçıvan şəhər birinciliyi reallaşıb. Şahmat, cüdo və voleybol üzrə yoldaşlıq görüşləri keçirilib.

Ötən ay idmançılarımız ölkə və beynəlxalq arenalarda uğurla çıxış edərək, ümumilikdə, 19 medal əldə ediblər. Yunanıstanın Katerini şəhərində keçirilən çimərlik güləşi üzrə Avropa çempionatında ölkəmizi təmsil edən Naxçıvan Güləş Federasiyasının yetirmələri 1 qızıl, 1 gümüş, Türkiyənin Malatya və Van şəhərlərində keçirilən beynəlxalq şahmat turnirlərdə Naxçıvan təmsilçiləri müxtəlif kateqoriyalar üzrə 7 birincilik, 4 ikincilik və 2 üçüncülük əldə ediblər. İsveçrənin Nyuşatl şəhərində keçirilən “Gimnastika hamı üçün” növü üzrə 13-cü “EVROGYM” və 3-cü “European gym for life challange”də Naxçıvan bədii gimnastika bölməsinin baş məşqçisi Humay Qafarova Azərbaycanı təmsil edən “Moonlight” yığma komandasının tərkibində II yerə layiq görülüb. Sabirabad Olimpiya İdman Kompleksində keçirilən şəhidlərin xatirəsinə həsr olunmuş karate üzrə klublararası açıq turnirdə bir idmançımız (qızıl), Göygöl Olimpiya İdman Kompleksində keçirilən cüdo üzrə “Yaponiya Səfirinin kuboku” açıq birinciliyində isə iki yeniyetmə idmançımız bir gümüş, bir bürünc medal olmaqla mükafatçılar sırasına düşüb.

## Gənclər vətənpərvərlik janrında film izləyiblər

Naxçıvanda Beynəlxalq Gənclər Günü ilə bağlı silsilə tədbirlər keçirilir. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Gənclər Birliyinin birgə təşkilatçılığı ilə “Yarımçıq xatirələr” tammetrajlı bədii filmi nümayiş olunub.



Dövlət sifarişi ilə ekranlaşdırılan film 1941-ci ildə Brest qalasını faşistlərdən qəhrəmancasına müdafiə etmiş və 50 ildən sonra doğma Qarabağını erməni işğalçılarından müdafiə etməyə qalxmış Azər adlı bir əsgərin taleyindən bəhs edir. Filmin qəhrəmanı iki müharibənin iştirakçısıdır. Filmdəki hadisələr Qarabağ müharibəsinə rus zabitinin gözü ilə baxışı əks etdirir.

Elxan Cəfərovun rejissorluq etdiyi filmin əsas hissəsinin çəkilişləri Belarusun Brest, Minsk şəhərlərində və Vileyka qəsəbəsində aparılıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Muxtar respublika paralimpiyaçıları beynəlxalq yarışlarda uğurla təmsil olunur

*Muxtar respublikada məhdud fiziki imkanlı şəxslərin paralimpiya hərəkatına cəlbi, onlara sağlam həyat tərzinin aşılanması istiqamətində ardıcıl tədbirlər icra olunur.*



Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası tərəfindən məhdud fiziki imkanlı şəxslərin idman həyatına inteqrasiyası, istedadlı idmançıların aşkara çıxarılması üçün davamlı tədbirlər həyata keçirilir, onların iştirakı ilə idmanın müxtəlif növləri üzrə yarışlar və maarifləndirici tədbirlər təşkil edilir. Bununla yanaşı, paralimpiyaçılarımızın ölkə və beynəlxalq miqyaslı yarışlarda iştirakı da diqqət mərkəzində saxlanılır. Son dövrlərdə isə müntəzəm olaraq Azərbaycan milli komandalarının heyətinə cəlb edilən Naxçıvan paralimpiyaçıları bu tendensiyanı cari ildə də uğurla davam etdirirlər.

Son olaraq Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyasının üzvü Fuad Qəribov Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin boccia idman növü üzrə milli komandasının heyətində Niderlandın Veldhoven şəhərində keçirilən "Intercontinental Challenger" turnirində iştirak edib. Məlumat üçün bildirək ki, Azərbaycan milli komandası, komanda yarışlarında birinci yerə layiq görülüb və kubokla təltif olunub.

Qeyd edək ki, Naxçıvan paralimpiyaçıları muxtar respublikanın bütün şəhər və rayonlarında yerli bölmələri yaradılmış boccia idman növü üzrə son dövrlərdə ardıcıl uğurlar əldə edib, Azərbaycan çempionatı – "Zəfər Turniri"ndə yüksək nəticələr göstəriblər. Həmçinin ötən ilin noyabr ayında Naxçıvan paralimpiyaçısı Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin boccia idman növü üzrə milli komandasının tərkibində İspaniyanın Sevilya şəhərində keçirilən Avropa Açıq çempionatında iştirak edib ki, bu da muxtar respublikanın paralimpiya tarixində bir ilkdir.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# İntellektual oyunun qalibi müəyyənləşib

Beynəlxalq Gənclər Gününə həsr olunmuş "Nə? Harada? Nə zaman?" intellektual oyunu üzrə muxtar respublika birinciliyinin əsas mərhələsi başa çatıb. Gənclər və İdman Nazirliyi, Naxçıvan Gənclər Fondu və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Gənclər Birliyi tərəfindən birgə təşkil olunan yarışmanın finalında 8 komanda iştirak edib.



Qaydalara əsasən 2 turdan ibarət yarışmada iştirakçılar üçün müxtəlif mövzularda 24 sual səsləndirilib. Hər düzgün cavab 1 xalla qiymətləndirilib. Nəticələrə əsasən "Buta" (Naxçıvan) komandası 20 xalla birinci olub. "Badamlı" (Şahbuz) 16 xalla ikinci yerdə qərarlaşıb. Aktivində 15 xal olan "Əlincə" (Culfa) isə üçüncülüklə kifayətlənib.

Qeyd edək ki, birincilikdə ilk üç yeri tutan komandalar 12 avqust tarixdə Beynəlxalq Gənclər Günü ilə bağlı keçiriləcək yekun tədbirdə mükafatlandırılacaq.

# İdmançılarımızdan uğurlu nəticə

Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Bakı şəhərində yerləşən İdman Sağlamlıq Mərkəzində full kontakt karate növləri üzrə açıq birincilik keçirilib.




Milli Olimpiya Komitəsinin yaradılmasının 30-cu ildönümünə həsr olunan yarışa ölkənin müxtəlif şəhər və rayonlarından, ümumilikdə, 400-dən çox idmançı qatılıb.

Naxçıvan Karate-do Federasiyasından 36 idmançısı yarışda öz qüvvəsini sınayıb. Nəticələrə əsasən Məhəmməd Abbaslı (16-17 yaş, 60 kiloqram), Afiq Haqverdiyev (12-13 yaş, 55+ kiloqram), Canər Abbaszadə (12-13 yaş, 50 kiloqram), Nərgiz Həsənli (12-13 yaş, 50 kiloqram), Kənan Qəmbərov (10-11 yaş, 40 kiloqram), Nizami Orucov (10-11 yaş, 30 kiloqram), Nur Əliyeva (10-11 yaş, 35- kiloqram), Əli Əzizov (8-9 yaş, 30+ kiloqram), Fatimə Bağırzadə (8-9 yaş, 25+ kiloqram), Saleh Qəmbərov (6-7 yaş, 25 kiloqram) müvafiq kateqoriyalar üzrə birinci yerə layiq görülüblər. Digər təmsilçilərimizin nəticələri ilə birgə Naxçıvan karateçiləri yarışı 10 qızıl, 9 gümüş və 7 bürünc medalla tamamlayıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Fövqəladə halların qarşısının alınması istiqamətində işlər davam etdirilir




Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələrin icrası iyul ayında da təmin edilib.

Nazirliyin hazırlıq planına uyğun olaraq yanacaqdoldurma məntəqəsində "Baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nazirliyin struktur qurumları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda taktiki-xüsusi, Culfa Rayon Mərkəzi Xəstəxanasında "Fövqəladə hallarda xəstəxananın fəaliyyətinin təşkili" mövzusunda kompleks mülki müdafiə təlimləri keçirilib.

Uzunoba çimərliyində gündəlik xidmət təşkil edilib, 16 min 278 nəfər vətəndaşın təhlükəsiz istirahəti təmin edilib, suda boğulma təhlükəsi ilə üzləşən 9 nəfər xilas edilib. 15 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması məqsədilə baxış-yoxlamalar keçirilib. 32 müəssisədə texniki təhlükəsizliyin təmin edilməsi məqsədilə maarifləndirmə-profilaktika işləri aparılıb.

Hesabat dövründə nazirliyin yanğın təhlükəsizliyi orqanları tərəfindən muxtar respublika ərazisində yanğın təhlükəsizliyinin etibarlı təmin olunması və yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 282 obyekt yoxlanılıb. 26 yaşayış binasının 514 mənzilinə, 3 min 457 fərdi yaşayış evinə baxış keçirilib. Yanğın cəhətdən təhlükəli olan 43 yaşayış evində elektrik xətti izolyasiya olunub, 71 qaz cihazının şlanqı qısaldılıb, 21 təbii qaz sızması aradan qaldırılıb, 3 nasaz şofben tipli suqızdırıcısının, 98 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb.

Taxıl zəmilərinin yanğınlardan qorunması məqsədilə 123 kombayn və digər kənd təsərrüfatı texnikalarına yanğına qarşı texniki baxışlar keçirilib, 2 min 113 nəfər sahibkar, torpaq mülkiyyətçisi və kombayn sürücüsü ilə maarifləndirici işlər aparılıb.

Meşələrdə, meşəətrafı sahələrdə və xüsusi mühafizə olunan təbiət ərazilərində yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi, xüsusilə taxıl sahələrinin biçindən sonra yandırılmaması, su hövzələrində insanların təhlükəsizliyinin təmin olunması məqsədilə nazirliyin struktur qurumlarından gündəlik olaraq 80 nəfərə yaxın əməkdaş patrul xidmətinə cəlb olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə təsdiq olunan Tədbirlər Planına uyğun olaraq meşələrdə, meşəətrafı sahələrdə və xüsusi mühafizə olunan təbiət ərazilərində yanğın təhlükəsizliyi tədbirlərinin həyata keçirilməsi məqsədilə maarifləndirici tədbirlər keçirilib.

Muxtar respublikada infeksiyaların, yolxucu xəstəliklərin yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə 13 milyon kvadratmetrdən artıq sahədə dezinfeksiya tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Yaylaq mövsümü zamanı baytarlıq xidmətinin düzgün təşkili epizootik sabitliyin qorunmasında mühüm rol oynayır



*Hərtərəfli dövlət qayğısı muxtar respublikada kənd təsərrüfatının hər bir sahəsinin sürətli inkişafını təmin edib. Bu isə, öz növbəsində, ərzaq təhlükəsizliyinə nail olunmasına, idxaldan asılılığın azaldılmasına, aqrar sahənin ixrac potensialının artmasına gətirib çıxarır. Digər kənd təsərrüfatı sahələrində olduğu kimi, heyvandarlıqda da intensiv metodların tətbiqi özünütəminat səviyyəsinin əhəmiyyətli dərəcədə yüksəlməsinə imkan verib.*

Mövsümlə əlaqədar olaraq kənd təsərrüfatı heyvanlarının yaylaq dövrü ərzində məhsuldarlığın yüksəldilməsi və sağlamlığın qorunması üçün Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti tərəfindən şəhər və rayon baytarlıq təşkilatlarına heyvan sürülərinin yaylaqlara aparılmazdan qabaq kliniki müayinədən keçirilməsi, yataq yerlərinin və su hövzələrinin ətraf ərazilərində dezinfeksiya işlərinin aparılması, heyvanları köçürməzdən əvvəl epizootik yol marşrutu xəritəsinin müəyyən edilməsi üçün bir sıra tapşırıqlar verilib.

Günümüzün reallığıdır ki, bu gün muxtar respublikada hər hansı heyvandarlıq məhsulunun sağlam ərsəyə gətirilməsi üçün təsərrüfat sahiblərinə yaxından dəstək göstərilir. Bu dəstəyin göstərilməsində digər məqsədlərdən biri də epizootik duruma tam nəzarət etməkdir. Bunun üçün xidmətin əməkdaşları tərəfindən mütəmadi olaraq yerlərdə və yaylaq ərazilərində sahibkarlarla görüşlər həyata keçirilir, onlara bu istiqamətdə lazımi baytarlıq xidməti göstərilir.

İyun və iyul ayları ərzində Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin, Şərur, Babək Rayon Baytarlıq idarələrinin və Culfa Rayon Baytarlıq Şöbəsinin bir qrup əməkdaşı, eləcə də baytar həkim briqadası tərəfindən heyvanların epizootik durumunun araşdırılması, peyvəndləmə tədbirlərinin aparılması və sahibkarlara lazımi köməklik göstərilməsi məqsədilə Şahbuz rayonunun Qanlıgöl yaylağında, Taxca Yelli və Ayrınc yurdlarında, Culfa rayonunun Dəmirli yaylağında və Kola dərəsində səyyar baytarlıq xidməti təşkil edərək sahibkarlarla görüşlər keçirilib. Görüşlər zamanı vurğulanıb ki, cari ilin əvvəlindən Dövlət Baytarlıq Xidmətində tərtib edilmiş epizootik Tədbirlər Planına əsasən yaylaq mövsümündə də kənd təsərrüfatı heyvanları arasında profilaktik peyvəndləmə tədbirləri davam edirilir və muxtar respublikanın epizootik sabitliyi daim nəzarətdə saxlanılır. Belə peyvəndləmə tədbirlərində sahibkarlar yaxından iştirak etməli, öz təsərrüfatlarını qorumaq üçün bu tədbirləri vaxtında həyata keçirməli, baytar həkimlərə köməklik göstərməlidirlər.



Görüşlərdə sahibkarlara bir sıra məsləhətlər verilib. Bildirilib ki, yaylaq mövsümündə baş verə biləcək xəstəliklərdən ən başlıcası qan-parazitar xəstəliklərdir. Bunun baş verməməsi üçün mal-qara saxlanılan ərazilərdə mütəmadi olaraq dezinseksiya və dezakarizasiya işləri həyata keçirilməlidir. Əks halda xəstəlik baş verən zaman mütləq baytar həkimə müraciət olunmalıdır. Eləcə də mövsümlə əlaqədar olaraq istivurma və günvurma halları baş verə bilər. Bunun qarşısını almaq üçün sahibkarlar öz təsərrüfatlarında olan heyvanlara diqqət etməlidir.

Heyvanların yaylaqda otarılması onların yemə olan tələbatının ödənilməsi ilə yanaşı, onlardan alınan məhsulların dadına, keyfiyyətinə müsbət təsir göstərir. Heyvanların yaylaqda açıq və təmiz havada saxlanılması orqanizmin fizioloji funksiyalarına yaxşı təsir göstərir, orqanizmdə maddələr mübadiləsini sürətləndirir, cavan heyvanların boy artımına və inkişafına köməklik edir.

Belə maarifləndirmə tədbirləri Ordubad, Şahbuz, Kəngərli və Sədərək Rayon Baytarlıq şöbələri və baytar həkim briqadası tərəfindən də təşkil edilib. Həmin tədbirlərdə də heyvandarlara dəyərli məsləhətlər verilib.

İyun və iyul aylarının yaylaq mövsümü ərzində mal-qara arasında ciddi problemlərə rast gəlinməyib. Əhalinin mal-qarasının yaylaq mövsümünü sağlam başa vurması



üçün Dövlət Baytarlıq Xidməti, onun strukturuna daxil olan şəhər, rayon baytarlıq idarələri və şöbələrinin baytar həkimləri, eləcə də fərdi baytarlıq sahəsi üzrə fəaliyyət göstərən baytar həkimlər mütəmadi olaraq sahibkarlarla əlaqə saxlayırlar. Məqsəd isə ondan ibarətdir ki, sahibkarların mal-qarası arasında xüsusi təhlükəli heyvan xəstəlikləri müşahidə edilməsin, heyvanlar sağlam olsun, muxtar respublikada epizootik vəziyyət sabit saxlanılsın və əhali sağlam heyvandarlıq məhsulları ilə təmin olunsun.

**Rübabə HÜSEYNZADƏ**
***Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin əməkdaşı***

### *İtmişdir*

Əhmədov Sirac Nəsib oğlunun adına olan hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

**ŞƏRQ** *qapısı*

**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
**E-mail:** *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ceyhun Məmmədov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1500. Sifariş № 702**